# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 99**

# QƏRAR

**Bakı şəhəri, 2 mart 2016-cı il**

## "Açıq məkanda yerləşdirilən reklama dair texniki şərtlər pasportu"nun forması"nın və "Nəqliyyat vasitələrində yerləşdirilən reklama dair texniki şərtlər pasportu"nun forması"nın təsdiq edilməsi barədə

"Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Açıq məkanda yerləşdirilən reklama dair texniki şərtlər pasportu"nun forması" təsdiq edilsin (əlavə olunur).
2. "Nəqliyyat vasitələrində yerləşdirilən reklama dair texniki şərtlər pasportu"nun forması" təsdiq edilsin *(əlavə olunur)*.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*